# AZƏRBAYCAN-SKANDİNAVİYA MƏDƏNİ ƏLAQƏLƏRİ

X.F.İSMAYILZADƏ
*Bakı Dövlət Universiteti*

Mədəni əlaqələr müstəqil Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemindəki fəaliyyətinin ayrılmaz tərkib hissəsi olub, ölkəmizin ümumbəşər sivilizasiyasına qovuşması prosesinin çox mühüm istiqamətini təşkil edir. Bu prosesin uğur və nailiyyətləri bir çox cəhətdən Avropanın inkişaf etmiş ölkələrini əhatə edən Skandinaviya dövlətləri ilə olan mədəni əməkdaşlıqla sıx əlaqəlidir. Xalqımızın mədəni əlaqələrinin inkişafına yüksək qiymət verərək Ümummilli liderimiz H.Əliyev demişdir:

«XIX-XX əsrlərdə xalqlarımızın mədəniyyətinin, ədəbiyyatının Avropa mədəniyyəti ilə yaranmış əlaqələrindən istifadə edib çox böyük nailiyyətlər qazanmasını xüsusi qeyd etmək lazımdır. Şərqin və Qərbin mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin sintezi həm Qərbə, həm də Şərqə çox böyük müsbət nəticələr gətirmişdir» (2, s. 7).

Müstəqil Azərbaycanın Qərbi Avropa və Skandinaviya ölkələri ilə çoxtərəfli münasibətləri sistemində mədəni və humanitar əməkdaşlıq xüsusi yer tutur. Ölkələrimiz arasında artmaqda olan qarşılıqlı faydalı iqtisadi əməkdaşlıq, çoxşaxəli siyasi əlaqələr xalqlarımızın əsrlər boyu qərarlaşmış mədəni münasibətlərinin təkamülündə yeni üfüqlər açır, bu prosesin inkişafı üçün əlverişli şərait yaradır, onun daha intensiv getməsinə təkan verir.

Bu təsadüfi olmayıb, qanunauyğun xarakter daşıyır. Belə ki, ölkələrin və xalqların iqtisadi, siyasi əməkdaşlığı ilə mədəni əməkdaşlığı bir-birilə ayrılmaz qarşılıqlı təsirdə çıxış edir. Başqa sözlə deyilsə, bir tərəfdən xalqların mədəni əlaqələri onların iqtisadi və siyasi əməkdaşlıq səviyyəsinin güclü təsiri altında formalaşır, digər tərəfdən isə sonuncuda əldə olunan uğurlar sözügedən sahələrdə əlaqələrin daha da möhkəmlənməsini stimullaşdırır. Deyilənlərdən aydın olur ki, xalqlar arasında beynəlxalq əlaqələri təhlil edərkən, dövlətlərin xarici siyasətinin ayrılmaz tərəfi olan mədəni əlaqələr də müstəqil şəkildə götürülüb araşdırılmalıdır.

Cəmiyyətin maddi istehsal həyatının inkişafı prosesində həm xalqların mənəvi əlaqələri, həm də mədəni əməkdaşlığı möhkəmlənir. Sonuncu anlayış müasir dövrdə beynəlxalq münasibətlər nəzəriyyəsinin və praktikasının ayrılmaz tərkib hissəsidir. Siyasi, iqtisadi və mənəvi tərəfləri əhatə edən beynəlxalq münasibətlər sistemini mədəni əlaqələrdən kənarda tam dolğunluğu ilə təsəvvür etmək qeyri-mümkündür.

Bəşəriyyətin çoxəsrlik tarixi praktikası inandırıcı surətdə sübut edir ki, müxtəlif xalqların mədəniyyətlərinin qarşılıqlı təsiri ilə bir-birinə nüfuz etməsi, ictimai inkişafın obyektiv qanunauyğunluğudur, mədəniyyətin əlahiddəliyi və yalnız öz milli qabığına qapanıb qalması, ümumilikdə mədəni tərəqqiyə güclü zərbə vurur.

Azərbaycan ilə Skandinaviya ölkələri arasında durmadan möhkəmlənən iqtisadi və siyasi əməkdaşlıq özünün müvafiq ifadəsini mədəni əlaqələr sahəsində də tapır. Qeyd edilməlidir ki, bu əlaqələrin tarixi xeyli əvvəllərə gedib çıxsa da, yalnız milli müstəqillik əldə edildikdən sonra onun intensiv inkişafına əlverişli şərait yaranmışdır. SSRİ-nin mövcudluğu dövründə isə Azərbaycanın Qərbi Avropa və Skandinaviya ölkələri ilə mədəni əlaqələri vahid ittifaq dövlətinə daxil olan müttəfiq respublika formasında baş vermişdir. Həm də nəzərdə tutulmalıdır ki, Sovet cəmiyyətinin qapalı xarakteri və ideoloji təzyiqin güclü olması üzündən bu dövrdə mədəni əlaqələr zəif inkişaf etmişdi. (5, s.160)

Müstəqillik illərində Azərbaycanın dünya ölkələri ilə mədəni əməkdaşlığı üçün misilsiz imkanlar yarandı. 1995-ci ilin noyabrın 29-da Londonda keçirilmiş Azərbaycanda investisiya imkanları adlı Beynəlxalq Konfransın açılışı mərasimindəki çıxışında Ümummilli liderimiz H.Əliyev ölkəmizin zəngin mədəni ənənələrə malik olduğunu və dünya mədəniyyəti ilə əlaqələrini vurğulayaraq demişdir:

«Azərbaycanın qədim və zəngin mədəniyyəti var. Azərbaycan bütün dövrlərdə dünya mədəniyyətinə layiqli töhfələr vermişdir. Məhz bu zəmində də indi Azərbaycan böyük potensial imkanlara malikdir (1, s.22).

Azərbaycanın digər ölkələrlə mədəni əlaqələrinin tənzim olunmasında «Xaricdə yaşayan azərbaycanlılarla dövlət siyasəti haqqında» Qanunun qəbul edilməsi müstəsna əhəmiyyətə malikdir. Qanunda dövlətimizin xaricdə yaşayan soydaşlarımız ilə əlaqədar yeritdiyi mədəniyyət, dil və təhsil siyasətinin əsas məqsədi, prinsipləri və əsasları xüsusi bölmədə ifadə olunmuşdur. Bu bölməyə daxil olan 7.1. bəndində deyilir: «Azərbaycan Respublikasının dövlət orqanları xaricdə yaşayan azərbaycanlılara öz mədəni irsinin və dilinin qorunub saxlanmasında və inkişaf etdirilməsində, öz ana dilində təhsil almaq imkanının həyata keçirilməsində yardım göstərir və bu məqsədlə zəruri tədbirlər görür».

İqtisadi, elmi-texniki və siyasi sahələrdə olduğu kimi, müstəqil Azərbaycan ilə mədəni əlaqələrin inkişaf səviyyəsinə görə də Skandinaviya ölkələri sırasında Norveç ön yerdə durur.

Hələ 1994-cü ilin 22 noyabrında Norveç Tədqiqat Şurası ilə Azərbaycan Elmlər Akademiyası arasında elmi-texniki əməkdaşlıq məsələlərinə dair qarşılıqlı anlaşma haqqında memorandum imzalanmışdı (8, s. 121).

Bundan sonra Azərbaycan-Norveç mədəni əlaqələri daha da inkişaf etdi. Dünya şöhrətli Norveç səyahətçisi və alimi Tur Heyerdal Qobustanda olarkən, buradakı son paleolit və neolitin başlanğıcı dövrünə aid olan unikal qayaüstü rəsmlər onu valeh etmişdi. O, heyrətini gizlətmədən göstərmişdi ki, burada rəsm olunan keçmiş qayıqlar onun okeanlararası üzdüyü qamış qayıqlara çox bənzəyir. Tur Heyerdal Azərbaycana Norveçin «Statoyl» Dövlət Neft Şirkətinin nümayəndə heyətinin fəxri üzvü kimi gəlmişdi. Onun bu formatda gəlişi təsadüfi deyildi: sözügedən Norveç şirkəti Osloda Norveç və ingilis dillərində Tur Heyerdalın 80 illik yubileyinə həsr olunmuş «Tur Heyerdal – tədqiqatçıdır» kitabına sponsorluq etmişdi. 1994-cü il 22 noyabrda Azərbaycan Elmlər Akademiyasında bu kitabın prezentasiyası keçirildi. Həmin tədbirdə Heyerdal Azərbaycan universitetlərinin alimləri və tələbələri ilə görüşdü. Heyerdal nəfis şəkildə tərtib olunmuş və çap edilmiş sözügedən kitabın nüsxələrini Elmlər Akademiyasının və Bakı Dövlət Universitetinin kitabxanalarına bağışlamışdı (3, s. 215-216).

90-cı illərin II yarısından etibarən Azərbaycan ilə Norveç arasında mədəni əlaqələr daha sürətlə inkişaf etməyə başladı. Bu, ölkəmizin iqtisadi, siyasi və mədəniyyət sahələrində qazandığı mühüm uğurlar və onun beynəlxalq nüfuzunun artması ilə izah edilməlidir. T.Heyerdal Qobustanda olarkən buradakı bizim eradan əvvəl 8-ci minilliyə aid qayaüstü insan, heyvan, qamış və qayıq rəsmlərini diqqətlə öyrənmək əsasında belə bir nəticəyə gəlmişdi ki, Azərbaycan ilə Norveç arasında əlaqələrin çox qədim tarixi vardır. O, 1995-ci ildə Nyu-Yorkda çıxan «Azerbayjan İnterneşnl» jurnalında dərc etdirdiyi «Azərbaycanın əlaqələri» adlı məqaləsində bu fikri əsaslandıraraq qeyd etdi ki, vikinqlərin Norveçdə ilk kralı olan Azər Odin ərəblərin qorxusundan Azərbaycandan köçüb, oraya getmişdir (7, s.30). Təxminən 4 il sonra 1999-cu ildə «Nedelya» qəzetinin 14 may tarixli nömrəsinə verdiyi «Norveçi azərbaycanlılar idarə etmişlər» adlı müsahibəsində görkəmli alim həmin fikri daha geniş açıqlayaraq göstərmişdi ki, şaqlarda (Norveç miflərində) verilmiş məlumatlara görə Norveçin 1830-cu ilə qədər gəlib çatmış 31 kralından birincisi Azər Odin VIII əsrdə ərəblərin Azərbaycana hücumu ərəfəsində qayıqla üzərək buraya gəlmişdir (16, s.2).

Həmin ilin may ayının 11-də T.Heyerdal «Azərbaycan-Norveç Dostluğu Cəmiyyətinin Bakıda keçirdiyi görüşündə Azərbaycanın şimal ölkələri ilə qədim əlaqələri» mövzusunda məruzə etmiş və bu kəşfini bir daha söyləmişdir. Görüş iştirakçıları onun çıxışını ayaq üstə alqışlarla qarşılamışdılar. Burada «Statoyl Azərbaycan» nümayəndəliyinin prezidenti T.Pedersen məşhur səyyaha Azərbaycan haqqında albom təqdim etdi. Görüşdə iştirak edən «Azərbaycan-Norveç Dostluğu Cəmiyyətinin sədri Q.Rəhimli çıxış edərək, ölkələrimiz arasında əlaqələrin inkişafına T.Heyerdalın böyük töhfə verdiyini vurğulamışdı (9, s.2).

2000-ci ilin fevralında Azərbaycan ilə Norveç arasında Şəkidə Qafqaz Albaniyasının qədim abidəsi olan Kişdə birgə layihənin həyata keçirilməsinə başlanıldı. Layihə abidənin memarlıq-arxeoloji tədqiqində, onun bərpası və uyğunlaşdırılması işlərinin aparılmasında və muzeyləşdirilməsinin təşkilində Norveç hökumətinin fəal iştirakını nəzərdə tuturdu (6, s.15).

Özündə 4 ardıcıl mərhələni əhatə edən bu layihə 2003-cü ildə tamamlandı (4, s.2-3).

Birgə Azərbaycan-Norveç «Kiş» layihəsinin həyata keçirilməsinin əhəmiyyəti təkcə ölkəmizin tarixi və mədəni irsinin dərindən öyrənilməsi baxımından deyil, həm də ölkələrimiz və xalqlarımız arasında mədəni əməkdaşlığın möhkəmlənməsi nöqteyi-nəzərindən də mühüm əhəmiyyətə malikdir.

2004-cü ilin noyabrında Norveçin Mədəniyyət və Dini İşlər üzrə nazirinin müavini xanım V.S.Hauqlandın başçılığı ilə ölkəmizə gəlmiş nümayəndə heyəti Azərbaycan musiqiçilərinin Norveçdə keçirdikləri konsertlərin disklərini buraxdırmış, uşaqlar üçün bir sıra kitablar nəşr etdirmişdir. Nümayəndə heyətinin Xarici İşlər Nazirliyində keçirdiyi görüşdə xanım Hauqland ölkələrimiz arasında mədəni əlaqələrin inkişafından söz açmış, bu sahədə yaxın gələcək layihələrini təqdim etmişdir. Azərbaycanın teatr və musiqi xadimlərinin Norveçə səfərlərinin təşkil ediləcəyini bildirərək, qonaq ölkələrimiz arasında mədəni əməkdaşlığın gələcəkdə də davam edəcəyinə əminlik ifadə etmişdi (12, s.2).

Azərbaycanın mədəni əlaqələri təkcə Norveç ilə məhdudlaşmır, həm də digər Skandinaviya ölkələrini də əhatə edir. Bu səbəbdən son dövrlərdə İsveç ilə mədəni əlaqələrin artması mühüm maraq doğurur. Hələ 1990-cı ildə İsveçdə Azərbaycan dilində «The Voice of Azerbaijan» (VOA) adlı radioproqram işə başlamışdı.

Burada hadisələrin həftəlik icmalı verilir, diskussiyalar və musiqi verilişləri aparılırdı. İnternet sistemində olan regional siyasətin situasiyasına dair həftəlik disputlar keçirilir, müxtəlif müsahibələr səsləndirilirdi. Son dövrdə İsveçin KİV-i Azərbaycana olan marağını daha da gücləndirir.

İsveç qanunlarına görə, radioproqramların lent yazıları hər il hakimiyyətə təqdim edilməlidir. 1994-cü ilin yanvarından başlayaraq, «VOA» proqramlarının surətləri həm də Azərbaycan Respublikasının mərkəzi arxivlərinə göndərilir. O vaxtdan bəri ümumilikdə 2000 saatdan çox Azərbaycan musiqisi, ədəbi əsərlər və məlumatlar verilmişdir ki, onların əksəriyyəti Voice of Amerikadan edilən mətbuat qəzet kəsikləri formasında olan materiallardır (3, s.218).

Azərbaycan Respublikası dövlət müstəqilliyini qazandıqdan sonra İsveç və işveçlilərin ölkəmizə və xalqımıza marağı daha da artdı. Hazırda İsveçdə 50000-dən çox azərbaycanlı yaşayır. Lakin məsələ təkcə sayda deyildir. İsveç elə ölkələrdəndir ki, burada tarixən bütün vətəndaşlar bərabər hüquq və vəzifələrə malikdir. Bu, o deməkdir ki, İsveçdə yaşayan həmvətənlərimizin uşaqları öz ana dillərində təhsil almaq, praktiki olaraq Azərbaycan dilində danışmaq imkanlarına malikdirlər. Yerli bələdiyyə orqanları belə imkanları reallaşdırmağı özlərinə vəzifə borcu hesab edirlər. Mühacirlər təşkilatları İsveçdə kütləvi hərəkatların tərkib hissəsi olmaqla, bələdiyyələrin miqrasiya siyasətinə təsir göstərməkdə mühüm rol oynayırlar. Onların öz nümayəndəliklərini açmaq hüququ vardır. Bundan əlavə onlar öz vətəndaşlıq hüquqlarını reallaşdırmaq üçün hakimiyyətdən maliyyə yardımı da ala bilirlər (3, s.218).

Azərbaycanda iqtisadi və siyasi sabitlik möhkəmləndikcə, milli mədəniyyətin çoxşaxəli inkişafı baş verdikcə, İsveç ilə mədəni əlaqələr daim artmaqda davam edir. Bu işdə vaxtaşırı olaraq respublikamıza səfər edən İsveç-Azərbaycan Komitəsi müstəsna rol oynayır. Komitənin nümayəndə heyətinin 2003-cü ilin fevralın 20-də respublikamıza gəlişi daha səmərəli olmuşdur. Nümayəndə heyətinə İsveç parlamentinin deputatı, Avropa parlamentinin üzvü Olle Şmid, ölkə parlamentinin üzvləri, İsveç-Azərbaycan Komitəsinin sədri Manaf Səbəbi və başqaları daxil idi. Fevralın 21-də qonaqlar incəsənət və xalça muzeylərində olmuşlar. İncəsənət muzeyinin direktor müavini G.Məmmədova muzeydəki sənət əsərləri barədə qonaqlara məlumat vermişdir. Xalça muzeyinin elmi katibi X.Əsədova xalqımızın qədim xalçaçılıq sənəti, XVII-XX əsr xalçaçılıq nümunələri haqqında ətraflı söhbət açmış, muzeyə daxil olan qonaqlara «Nizami obrazları xalçalarda» adlı kitabı hədiyyə etmişdir. Sonra qonaqlar İçərişəhəri gəzmişlər. Nümayəndə heyətinin üzvləri – İsveç Parlamentinin xarici əlaqələr komissiyasının üzvü Qoran Linablad, Malmo şəhəri İcraiyyə şurasının üzvü Tore Robertson, Komitənin sədri Manaf Səbəbi və gənclər şöbəsinin üzvü Nərgiz Nədai muzeylərlə və İçərişəhərdə tanışlığın, onlarda dərin təəssürat yaratdığını bildirmişdilər. Qonaqlar həmin gün Qobustana da getmiş, qədim qayaüstü təsvirlərlə tanış olmuşlar (10, s.6).

2004-cü ilin fevralın 22-də İsveç-Azərbaycan Komitəsinin nümayəndə heyəti respublikamızın gənclər, idman və turizm naziri Ə.Qarayevlə görüşmüşdür. Səmimilik şəraitində keçən görüşdə nazir Azərbaycan Respublikasının gənclər siyasətindən, idmanın və turizmin inkişaf etdirilməsi üçün görülən tədbirlərdən danışmış, respublika rəhbərliyinin bu məsələlərə daim böyük diqqət və qayğı göstərdiyini vurğulamışdı. Son illərdə Azərbaycanın idman sahəsindəki uğurlarından söhbət açan nazir bildirdi ki, indi ölkəmizdə ən yüksək standartlara cavab verən idman qurğuları gənclərin istifadəsinə verilmişdir və bir neçəsi də tikilməkdədir, bu işdə AŞ PA sədrinin müavini və büro üzvü, Milli Olimpiya Komitəsinin prezidenti İ.Əliyevin xüsusi xidmətləri vardır. Sonra qonaqlara Azərbaycanın turizm potensialı barədə ətraflı məlumat verildi, son vaxtlar bu sahəyə diqqətin daha da artırıldığı, xeyli özəl turizm təşkilatlarının yarandığı çatdırıldı. Görüşün sonunda qonaqlara Azərbaycanda turizmə dair buraxılmış kitab və bukletlər təqdim edildi.

Turizmin inkişafına xüsusi diqqət yetirildiyini söyləyən nazir dedi ki, əcnəbi turistlərin, habelə iş adamlarının səfərləri zamanı viza məsələsində çətinliklərlə üzləşməmələri üçün Bakının Binə hava limanında XİN-nin konsulluq şöbəsi yaradılmışdır. Qeyd olundu ki, xaricdə yaşayan həmvətənlərimizlə əlaqələrə də xüsusi diqqət yetirilir. Bu məqsədlə ayrıca Dövlət Komitəsi, Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası yaradılmışdır.

Avropa parlamentinin və İsveç-Azərbaycan Komitəsinin üzvü Olle Şmid ətraflı məlumata görə minnətdarlığını bildirərək dedi ki, «bu cür səfərlərin nəticəsində müsbət və obyektiv qərarlar qəbul etmək olur. Bu səfərimizdə biz Azərbaycanla bağlı bir çox həqiqətləri öyrənə bildik» (11, s.6).

Dünya Azərbaycanlıları Konqresinin və İsveçdə fəaliyyət göstərən «Babək» Dil Kursları Dərnəyinin təşəbbüsü ilə 2004-cü ilin sentyabrın 4-5-də dahi Azərbaycan şairi M.Füzulinin 550 illik yubileyi Höteborq şəhərində təntənə ilə qeyd olunmuşdur. Burada keçirilmiş Uluslararası Füzuli Festivalında şair Rüstəm Behrudi, dilçi alimlər Aydın Abbasov, Cəlil Nağıyev, sənətçilər Aşıq Ədalət, Bilal Əliyev və İlhamə iştirak etmişdir. DAK-ın Azərbaycan bürosunun təmsilçisi Xəzər Emin və adı çəkilən festivalın digər iştirakçıları Beynəlxalq Mətbuat Mərkəzində keçirdikləri mətbuat konfransında bildirmişlər ki, festivalın əsas məqsədi Füzuli yaradıcılığını dünyaya tanıtmaq, dünya azərbaycanlılarını bir araya toplamaq və xalqımızın milli-mədəni sərvətlərinin zənginliyini bir daha təsdiqləməkdir. 35-ə yaxın ölkədə soydaşlarımızın iştirak etdiyi tədbirdə 300-dən artıq sənətçi Füzuli əsərlərindən ibarət zəngin proqram təqdim etdi. Tədbirdə iştirak edən alim və ziyalılarımız Füzuli fəlsəfəsi, yaradıcılığı və onun dünya, Azərbaycan ədəbiyyatında yeri barədə ətraflı və maraqlı məlumatlar verdilər.

Aparılmış təhlillər və müşahidələr göstərir ki, Azərbaycan ilə Skandinaviya ölkələri arasında mədəni əməkdaşlıq gündən-günə genişlənməyə doğru meyl edir. Bu təsadüfi olmayıb, Azərbaycanın milli müstəqillik dövründə ictimai həyatın bütün sahələrində əldə etdiyi mühüm uğurların məntiqi davamıdır. Azərbaycanın Avropa və Skandinaviya ölkələri ilə artmaqda olan mədəni əlaqələri onu dünya birliyi ölkələrinin vahid mədəniyyət standartlarına daha da yaxınlaşdırır.

## QEYDLƏR

1. Əliyev H. Müstəqilliyimiz əbədidir. 5-ci кitab, Вакı: 1998.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir. 8-ci кitab, Вакı: 1998.
3. Аббасбейли А., Аббасбейли Е. Гейдар Алиев и мировая политика. Баку: 1997.
4. Azərbaycanın memarlıq abidələri. Kiş. Вакı: 2005.
5. Касумлу М. Азербайджан в международных культурных связях (1946-1990). Тбилиси, 2005.
6. Kiş–Qafqaz Albaniyasının–Azərbaycanın görкəmli memarlıq abidəsidir. Вакı: 2001.
7. Рустамов Д. Гобустан – очаг древней культуры Азербайджана. Б.: 2000.
8. Эмир-Ильясова Э.И. Геополитика во внешнеэкономических связях АзербайдЖанской Республики. Б.: 2003.
9. «Azərbaycan» qəzeti. 1999, 14 may.
10. «Azərbaycan» qəzeti. 2003, 22 fevral.
11. «Azərbaycan» qəzeti. 2004, 23 fevral.
12. «Azərbaycan» qəzeti. 2004, 25 noyabr.
13. «Azərbaycan» qəzeti. 2005, 17 noyabr.
14. «Xalq» qəzeti. 2004, 11 sentyabr.
15. «Xalq» qəzeti. 2004, 22 noyabr.
16. «Nedelya» qəzeti. 1999, 14 may.

## КУЛЬТУРНЫЕ СВЯЗИ АЗЕРБАЙДЖАНА–СКАНДИНАВИИ

Х.Ф.ИСМАИЛЗАДЕ

### РЕЗЮМЕ

Статья посвящена анализу культурных связей Азербайджана и Скандинавских стран. В ней отмечается, что хотя эти связи имеют значительно давнюю историю, в период существования СССР они осуществлялись в составе общесоюзного государства и подвергались мощному идеологическому воздействию. Только с обретением национальной независимости, возникли реальные возможности для расширения культурного сотрудничества между вышеназванными странами. Далее на фактическом материале показывается рост культурных отношений Азербайджана с Норвегией, Швецией, Данией и Финляндией. Особо подчеркивается роль в этом процессе известного норвежского путешественника и ученого-историка Тура Хейердала.

## CULTURAL RELATIONS OF AZERBAIJAN AND SCANDINAVIA

Kh.F.ISMAILZADE

### SUMMARY

The article is devoted to the analysis of cultural relations of Azerbaijan and the Scandinavian countries. It is stated here that, though these relations have significantly old history, they were realized in the structure of all-union governments and were exposed to powerful ideological influence during the period of existence of the USSR. Only after gaining national independence there appeared real opportunity for development of cultural relations between the above-mentioned countries. Further on the actual material there is mentioned the growth of cultural relations of Azerbaijan with Norway, Sweden, Denmark and Finland. The role of the famous Norwegian explorer and scientist-historian Thor Heyerdahl in this process is especially stressed.